İqtisadi İslahatların
Təhlili və Kommunikasiya
Mərkəzi



# İXRAC İCMALI

İyun 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

## ONU DA BİLDİRMƏLİYƏM Kİ, AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BİZ CƏMİ İKİ SƏNAYE ZONASI NƏZƏRDƏ TUTMUŞUQ - BİRİ AĞDAMDA, BİRİ DƏ CƏBRAYILDA

Cəbrayıl rayonunda sənaye zonası – “Araz Vadisi” Sənaye Zonası fəaliyyət göstərir, orada da böyük sahəni biz nəzərdə tutmuşuq, 200 hektar sahə ayrılıb. Bu sənaye zonasında indi 20 rezident var, artıq istehsala da başlamışlar. O, daha da böyüyəcək, o da buradan çox da uzaqda deyil. Onu da bildirməliyəm ki, azad edilmiş ərazilərdə biz cəmi iki sənaye zonası nəzərdə tutmuşuq - biri Ağdamda, biri də Cəbrayılda.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 9 may 2026-cı il tarixində Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşündəki nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 13

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 16

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-may ayları ərzində qeyri-neft-qaz ixracı 1,5 milyard ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-may ayları ərzində yeyinti məhsullarının ixracı 144.6 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üzrə iyun sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,6% artaraq 1,5 milyard ABŞ dolları təşkil edib.

Cari ilin may ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin eyni dövrü ilə müqayisədə 27,2 faiz artaraq 396,7 milyon ABŞ dolları təşkil edib. Ümumilikdə bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 23,8 faiz artaraq 144,6 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsullarının ixracı isə 30,7 faiz artaraq 288,5 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-may aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,2 dəfə pambıq iplik 2,4 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 57%,

alüminium və ondan hazırlanan məmulatlar 44,6%, pambıq lifi 25%, meyvə-tərəvəz 18,6%, çay 16,8%, spirtli və spirtsiz içkilər isə 6% artıb.

2026-cı ilin yanvar-may aylarında aqrar məhsullar üzrə ixrac 25,2% artaraq 414,5 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 39% artaraq 160,5 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 28,8% artaraq 575,1 milyon ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (167,6 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda tomat (119,8 milyon ABŞ dolları) ikinci, mis filizləri (112,5 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin may ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında tomat (44,6 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (36,5 milyon ABŞ dolları) ikinci, çiyələk (26,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.



2026-cı ilin yanvar-may aylarında (qeyri-monetar qızıl istisna olmaqla) Rusiya Federasiyasına 433,7 milyon ABŞ dolları, Türkiyəyə 306,1 milyon ABŞ dolları, Gürcüstana 229,7 milyon ABŞ dolları, İsveçrəyə 178,7 milyon ABŞ dolları, Ukraynaya isə 67,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin may ayında Rusiya Federasiyasına 127,1 milyon ABŞ dolları, Türkiyəyə 86,8 milyon ABŞ dolları, Gürcüstana 53,8 milyon ABŞ dolları, İsveçrəyə 39,1 milyon ABŞ dolları, Amerika Birləşmiş Ştatları 15,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

# 2026-CI İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)*

2026 İXRAC İCMALI iyun




* qeyri-monetar qızıl istisna olmaqla

# 2026-CI İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyun




* qeyri-monetar qızıl istisna olmaqla

# 2026-CI İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)







İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)



# 2026-CI İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2026-CI İLİN MAY AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyun



# 2026-CI İLİN YANVAR-MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyun

| Mal | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 167.6 | 121.3 |
| Tomat (pomidor) | 119.8 | 113.8 |
| Mis filizləri və konsentratları | 112.5 | 9.4 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 112.3 | 88.7 |
| Meşə fındığı | 89.8 | 64.8 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 54.7 | 12.8 |
| Karbamid | 53.4 | 78.8 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 49.8 | 40.6 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 47.3 | 43.2 |

2026 İXRAC İCMALI iyun

# 2026-CI İLİN MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2026 | 2025 |
|---|---|---|
| Tomat (pomidor) | 44.6 | 39.1 |
| Qızıl | 36.5 | 25.9 |
| Çiyələk | 26.6 | 10.2 |
| Mis filizləri və konsentratları | 24.6 | 2.4 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 19.3 | 27.2 |
| Karbamid | 18.9 | 15.3 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 17.3 | 3.5 |
| Metanol (metil spirti) | 16.4 | 11 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 10.9 | 3.4 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



2026-cı ilin yanvar-may ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "AGRARCO" MMC.

Qeyri-neft sektoru üzrə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "SOCAR POLYMER" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "AzerGold" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, "Socar Cape" MMC, "Naxçıvan Enerji" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2026 İXRAC İCMALI iyun



# 2026-CI İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2026-cı ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 6.9 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2026-cı ilin yanvar – may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə 6,9 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidmətləri ixrac edib. Xidmət ixrac olunan ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan, İsveç və Misir böyük paya sahibdir. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 63%-ni təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,8 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,3 milyon ABŞ dolları ilə Lüksemburq, 490 min ABŞ dolları ilə Türkiyə, 486 min ABŞ dolları ilə Pakistan, 187,2 min ABŞ dolları ilə İsveç qərarlaşıb.

# 2026-CI İLİN YANVAR-MAY AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 6.9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR





**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

Xidmət ixrac etdiyi 5 əsas ölkə



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat